İ.A.Qonçarov

# OBLOMOV

Tərcüməçi:
H.Şərifov

qanun nəşriyyatı

И.А.Гончаров

# ОБЛОМОВ

İvan Qonçarovun “Oblomov” əsəri XIX əsr Rusiya ədəbiyyatının ən mühüm realist romanlarından biridir. Əsərin baş qəhrəmanı İlya İlyiç Oblomov, varlı bir torpaq sahibinin oğlu olaraq dünyaya gəlmiş, lakin passiv və fəaliyyətsiz bir həyat tərzi keçirmişdir. Roman onun hərəkətsizliyini, həyat qarşısında zəif iradəsini və tənbəlliyini tənqid edərək “Oblomovluq” adlı fenomenin yaranmasına səbəb olur, bu da insanın tənbəllik, məsuliyyətsizlik və süstlük içində keçirdiyi həyat tərzini ifadə edir.

Oblomovun yaxın dostu Ştolts isə onun tam əksidir – fəal, çalışqan və həyatını məqsədlərə doğru yönəldən bir insan olaraq təsvir olunur. Bu iki xarakterin müqayisəsi ilə Qonçarov, Rusiya cəmiyyətindəki sosial və mənəvi problemlərə işıq tutur və oxucunu hərəkətsizliyin və həyata dərin bağlılıqdan uzaq qalmağın nəticələri üzərində düşünməyə dəvət edir. Roman, insanın daxili dünyasını və dəyişən dəyərlər qarşısında zəif iradəli insanların necə təsir altında qaldığını ustalıqla əks etdirir.

**И.А.Гончаров ОБЛОМОВ**
**İ.A.Qonçarov OBLOMOV**
Bakı, Qanun Nəşriyyatı, 2024, 640 səh.

Janr: bədii ədəbiyyat, roman
Yaş qrupu: 12+
Ölçü: 145x210 mm
Cild: yumşaq
Çapa imzalandı: 02.11.2024

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: H.Şərifov
Redaktor: Nüşabə Hüseynova
Korrektor: Aytən Səadəti
Mətn dizaynı: Rahilə Şamil
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-26-886-7

© Qanun Nəşriyyatı, 2014; 2024
© Azərbaycan Dövlət Nəşriyyatı, 1954

# BİRİNCİ HİSSƏ

## I

Qoroxovaya küçəsində, bütöv qəza şəhərindəki qədər əhalinin yaşadığı böyük evlərin birində İlya İliç Oblomov səhər öz mənzilində yatağında uzanmışdı.

32—33 yaşında, ortaboylu, tünd-alagözlü, xoşsifət idi. Üz cizgilərində hansısa məna, gərginlik və ya dəqiq bir ifadə yox idi. Fikir onun üzündə azad quş kimi uçur, gözlərində qanad çalır, yarıaçıq dodaqlarına qonur, alnının qırışları arasında gizlənir, sonra yoxa çıxırdı. Bu zaman mülayim, ılıq qayğısızlıq və laqeydlik şüası onun simasını işıqlandırırdı. Bu qayğısızlıq üzündən bütün bədəninə, hətta xalatının qırışlarına da keçirdi.

Bəzən onun gözləri bir nöqtəyə zillənirdi: sanki yorğunluq və qüssənin təcəssümü idi. Lakin nə yorğunluq, nə də qüssə tək üzünün deyil, hətta ürəyinin də xarakterik xüsusiyyəti olan mülayimliyi onun simasından silə bilməzdi: ruhu onun gözlərində, təbəssümündə, başının, əlinin hər bir hərəkətində aşkar təzahür edirdi. Səthi müşahidəyə malik, soyuq və etinasız istənilən şəxs Oblomova ötəri nəzər salsaydı, belə deyərdi: “Nə mehriban və sadə insandır!”. Nisbətən arif və xoşniyyət adam isə onun üzünə xeyli zəndlə baxıb, təbəssümlə uzaqlaşardı.

İlya İliçin üzünün rəngi nə çəhrayı idi, nə qarabuğdayı, nə də solğun; onun üzü laqeyd idi. Bəlkə də, ona görə belə görünürdü ki, Oblomov illəri qabaqlayıb vaxtından əvvəl yaşa dolmuşdu: bu da onun ya hərəkətsizliyindən və ya havaya çıxmamasından, ola bilər hər iki səbəbdən idi. Ümumilikdə, onun bədən quruluşu son dərəcə zərif idi, boynunun, xırda ətli əllərinin, yumşaq və kök çiyinlərinin tutqun, kağız kimi ağ rəngi qətiyyən kişiyə yaraşmırdı.

Hətta təşvişə düşdüyü hallarda belə onun hərəkətlərini mülayimlik və özünəməxsus tənbəllik müşayiət edirdi. Üzünə qayğı buludu

çökdükdə baxışları tutqunlaşır, alnında qırışlar əmələ gəlir, şübhə, kədər, qorxu oyunu başlayırdı; lakin bu təşviş nadir hallarda müəyyən fikir, ideya şəklində simasında iz qoyur, bundan da az hallarda isə niyyətə çevrilirdi. Onun bütün həyəcanı dərindən köks ötürməklə həllini tapır, apatiya və mürgü içərisində donurdu.

Oblomovun ev paltarı onun üzünün sakit cizgilərinə və zərif bədəninə necə də uyğun gəlirdi! Əynində İran parçasından xalat var idi: əsl Şərq xalatı, Avropa tərzinə zərrə qədər də bənzəməyən qotazsız, məxmərsiz, beli olmayan, gen-bol xalat; xalat o qədər geniş idi ki, içinə iki Oblomov yerləşərdi. Xalatın qolları ənənəvi Asiya dəbinə uyğun idi: barmaqlardan başlayaraq çiyinə doğru getdikcə genişlənirdi. Xalat təzə vaxtlarındakı təravətini itirmişdisə də, bəzi yerləri özünün ilkin, təbii rəngini sonradan əmələ gələn başqa çalara vermişdisə də, Şərqə məxsus parlaqlığını və möhkəmliyini qoruyub saxlamışdı.

Oblomovun nəzərində bu xalatın əvəzsiz üstünlükləri var idi: yumşaq və elastik idi. Əynində nəsə olduğunu hiss etmirdi; xalat bədənin ən kiçik hərəkətinə də itaətkarlıqla ram olurdu.

Oblomov evdə həmişə qalstuksuz, jiletsiz gəzirdi: çünki genişliyi və azadlığı sevirdi. Ayağındakı tuflilər uzunburun, yumşaq və gen idi; buna görə də ayaqlarını yatağından döşəməyə sallayanda ayaqları birbaşa tuflilərin içinə girirdi.

İlya İliçin uzanması nə xəstənin onun üçün vacib olan uzanmasına bənzəyirdi, nə yorğun adamın təsadüfən yatağa sərilməsinə, nə də tənbəlin həzz almaq üçün uzanmasına. O, evdə olanda – Oblomov, demək olar, həmişə evdə idi – daim uzanıqlı vəziyyətdə olurdu. Özü də Oblomovu görməyə adət etdiyimiz – ona həm yataq otağı, həm kabinet, həm də qəbul otağı kimi xidmət edən otaqda uzanırdı. Onun bundan başqa daha üç otağı var idi, lakin Oblomov bu otaqlara çox nadir hallarda, yalnız səhər çağlarında, o da xidmətçi təmizləyəndə

keçirdi. Bu isə hər gün olmurdu. Həmin otaqlarda mebellər çexolda, pərdələr isə salınmış vəziyyətdə olurdu.

İlya İliçin uzandığı otaq, ilk baxışdan, son dərəcə səliqəli görünürdü. Otaqda qırmızı ağacdan xüsusi yazı stolu, üstünə ipək parça çəkilmiş iki divan, üzərində dünyada görünməmiş quşların və meyvələrin güləbətinlə işlənmiş təsvirləri olan zərif arakəsmələr var idi. Bunlardan başqa ipək pərdələr, xalılar, rəsmlər, tunc əşyalar, farforlar və xeyli xırım-xırda...

Lakin təmiz və gözəl zövqə malik birinin təcrübəli gözü otağa ötəri nəzər salsaydı, bu şeylərdən yaxa qurtarmaq üçün labüd ədəb və qaydalara birtəhər riayət edildiyini görərdi. Oblomov bu barədə, şübhəsiz, yalnız kabinetini səliqəyə salarkən qayğılanırdı. İncə zövqə malik biri qırmızı ağacdan olan bu ağır, yöndəmsiz stulları, laxlayan kitab rəflərini bəyənməzdi. Divanlardan birinin arxası batmışdı, yapışqanla yapışdırılsa da, taxtanın bəzi yerləri aralanmışdı.

Şəkillər də, vazalar da, xırım-xırda əşyalar da eyni vəziyyətdə idi.

Mənzil sahibi öz kabinetinin səliqə və quruluşuna elə soyuq və dalğın nəzərlərlə baxırdı ki, sanki gözləri ilə: "Bunları kim gətirib bura düzüb?" deyirdi. Oblomovun öz mülkünə bu cür soyuq nəzərlə baxmasının, bəlkə də, xidmətçisi Zaxardan da laqeyd yanaşmasının nəticəsi idi ki, kabinetdəki səliqəsizlik və pintiliyə mat qalmaq olardı.

Divarları, şəkillərin ətrafını toz basmış, hər yer əklilə bənzəyən hörümçək toru ilə örtülmüşdü. Güzgülərin üstü o qədər tozlanmışdı ki, nəyinsə və ya kiminsə əksini göstərmək əvəzinə, sadəcə, qeyd yazmağa yarayan lövhəyə bənzəyirdi. Xalçalar ləkə-ləkə idi. Divanın üstündə yaddan çıxmış məhrəba var idi. Dünənki axşam yeməyindən sonra stolun üstündə çirkli boşqab, duzqabı, gəmirilmiş sümük və çörək qırıntılarının tökülüb qalması, səhər yığışdırılması adi hal almışdı.

Hər əşyanı, hər tərəfi elə toz basmış, hər şey elə solmuşdu ki, ümumiyyətlə, otaq canlı insan həyatının izlərindən və əlamətlərindən o dərəcədə məhrum idi ki, əgər bu boşqab, bir də indicə çəkilib,

yatağa söykədilmiş çubuq və yaxud yataqda uzanmış ev sahibinin özü olmasaydı, güman etmək olardı ki, burada heç kim yaşamır. Doğrudur, rəflərdə iki-üç açıq kitab var idi, bir tərəfdə qəzet atılıb qalmışdı, yazı stolunun üstünə mürəkkəbqabı ilə qələmlər də qoyulmuşdu. Lakin kitabların açıq səhifələri tozlanmış və saralmışdı. Görünür, çoxdan açıq qalmışdı. Qəzet keçən ilin idi, mürəkkəbqabına qələm batırılsaydı, oradan qorxmuş milçək vızıltı ilə çıxıb uçardı.

İlya İliç, öz adətinə zidd olaraq, çox tez, saat səkkizdə oyanmışdı. Nədənsə çox qayğılı idi. Üzündə gah həyəcan, gah qorxu, gah da qüssə oxunurdu. Hiss olunurdu ki, daxilində mübarizə gedir, ağlı isə hələ ki köməyə can atmır.

İş bundadır ki, Oblomov bir gün əvvəl kənddən, kənd nümayəndəsindən xoşagəlməz məzmunda məktub almışdı. Darğanın nədən yaza biləcəyi məlum məsələdir: məhsulun olmaması, vergi borcu, gəlirin azalması və s. Hərçənd, keçən il, üç il bundan əvvəl də o, ağasına bu cür məktublar göndərmişdi. Lakin bu axırıncı məktub ona istənilən pis sürprizdən daha ağır təsir etmişdi.

Asan idi ki?! Müəyyən tədbirlər görmək, ölçü götürmək üçün çarə düşünmək lazım idi. Bir də insafla demək lazımdır ki, İlya İliç öz işlərinin qayğısına qalan adam idi. O, hələ bir neçə il bundan əvvəl darğadan bu məzmunda birinci məktubu aldıqdan sonra malikanəsini idarə etmək üçün beynində dəyişikliklər planı qurmağa başlamışdı.

Bu plana görə müxtəlif yeni iqtisadi, inzibati və digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu. Lakin plan hələ tam hazır deyildi, amma darğanın onun kefini pozan məktubları hər il gəlir, onu düşünməyə, fəaliyyət göstərməyə məcbur edir və beləliklə də onun rahatlığını pozurdu. Oblomov plan tam hazır olanadək qəti tədbir tökmək zərurətini artıq dərk edirdi.

O, ayılan kimi ayağa qalxmaq, yuyunmaq, çay içib, yaxşıca götür-qoy etmək, fikrindən keçənləri yazmaq və ümumiyyətlə, bu işlə ciddi şəkildə məşğul olmaq qərarına gəldi.

O, bu niyyəti barədə əzab çəkə-çəkə düşünərək yarım saat da uzandı. Birdən ağlına gəldi ki, bunu çay içdikdən sonra da edə bilər, çayı isə, adəti üzrə, yatağında da içə bilər. Axı uzanıqlı vəziyyətdə düşünməyə heç nə mane olmur.

Belə də elədi. Çay içdikdən sonra yatağından dikəldi, az qala, əməlli-başlı duracaqdı: tuflisinə baxa-baxa, hətta bir ayağını onlara doğru sallamağa da başlamışdı ki, birdən geri çəkdi.

Saat onun yarısı zəng çaldı. İlya İliç diksindi.

Təəssüflə və ucadan dedi:

– Bu nədir, mən nə edirəm? Vicdan da yaxşı şeydir: işə girişmək vaxtıdır! Özünü toparla və işə başla...

– Zaxar! – O qışqırdı.

İlya İliçin kabinetindən kiçik dəhlizlə ayrılan otaqda əvvəlcə, zəncirli itin mırıltısına oxşar səs, sonra isə hündürlükdən yerə tullanan adamın ayaq tappıltısı eşidildi. Bu, yatağından yerə atılan Zaxarın ayaq səsi idi; o, adətən, öz vaxtını burada keçirər, bütün günü mürgüləyərdi.

Otağa bir qoca girdi; əynində boz rəngli pencək var idi; pencəyin qolunun altı deşilmişdi; köynəyindən bir parça deşikdən bayıra çıxmışdı; pencəyin altından mis düymələri olan boz jilet görünürdü; daz kəlləsi ağappaq idi; olduqca enli və artıq çallaşmaqda olan gur bakenbardlarının hər birindən üç saqqal çıxardı.

Zaxar nəinki Allahın ona verdiyi bu görkəmi, hətta kənddə geyindiyi paltarını da dəyişməyə çalışmırdı. Paltar onun üçün kənddən gətirdiyi tərzdə tikilərdi. Boz pencək və jilet həm də buna görə onun xoşuna gəlirdi ki, belə yarırəsmi paltarda o, bir zamanlar öz mərhum ağalarını kilsəyə və ya qonaqlığa müşayiət edərkən geydiyi livreyanı xatırladırdı; livreya isə onun xatirələrində Oblomovlar nəslinin ləyaqətinin yeganə nişanəsi idi.

Uzaq kənddəki sonu görünməyən, sakit ağa həyatını qocaya xatırladan başqa heç nə yox idi. Qoca ağalar ölmüşdü, Oblomovun ata-babalarının şəkilləri evdə, yaxud haradasa çardaqda idi; ata-babaların qədim məişət və nüfuzları haqqında rəvayətlər getdikcə unudulur,

xatirələrdən silinirdi. Artıq yalnız kənddə bəzi qocaların xatirələrində yaşayırdı. Buna görə də Zaxar üçün boz pencək çox qiymətli xatirə idi: bu pencəkdə, bir də ağasının ata-anasını xatırladan üzündə və ədalarında, onun şıltaqlıqlarında – Zaxar ağasının şıltaqlıqlarına həm ürəyində, həm də ucadan deyinsə də, yenə də ağa iradəsinin, ağa hüquq və ixtiyarının təzahürü olan bu davranışına daxilən hörmət bəsləyirdi – keçmiş əzəmətin zəif əlamətlərini görürdü.

Bu şıltaqlıqlar olmayanda o, sanki öz üzərində ağasının təsirini hiss etmirdi; bunsuz heç bir şey Zaxarın təsəvvüründə onun gəncliyini, onların çoxdan tərk etdikləri kəndlərini, köhnə və qoca xidmətçilərin, dayələrin, mürəbbilərin nəsildən-nəslə keçən, yeganə xronika olan bu qədim ev haqqındakı rəvayətlərini canlandıra bilmirdi.

Oblomovların evi yaxın ətrafda vaxtilə çox zəngin və məşhur ev idi, lakin sonralar, Allah bilir nə üçünsə, getdikcə yoxsullaşır, kiçilirdi. Beləliklə, nəhayət, köhnəlməmiş dvoryan evləri arasında hiss edilmədən itib-batdı. Evin yalnız qocalmış qulluqçuları keçmişin vəfalı xatirələrini qoruyub bir-birinə ötürməklə ona müqəddəs və əziz yadigar kimi baxırdılar.

Zaxar boz pencəyini buna görə sevirdi. O, öz bakenbardlarını uşaqlıq illərində eynilə bu cür bakenbardları olan aristokrat tərzindəki qoca xidmətçilər gördüyü üçün çox sevirdi.

Fikrə getmiş İlya İliç Zaxarın gəldiyini xeyli vaxt hiss etmədi. Zaxar dinməz-söyləməz onun qarşısında dayanmışdı. Nəhayət, o öskürdü.

– Nə istəyirsən? – İlya İliç soruşdu.

– Siz məni çağırmadınız?

– Çağırdım? Niyə çağırmışdım – heç yadımda deyil! – deyə o, gərnəşə-gərnəşə cavab verdi, – hələlik get öz otağına, qoy yadıma salım.

Zaxar getdi. İlya İliç isə uzanmaqda davam edib, lənətə gəlmiş məktubu xatırladı.

On beş dəqiqəyədək vaxt keçdi.

– Hə, bəsdir uzandım, – dedi. – Daha durmaq lazımdır... Yox, yaxşısı budur qoy darğanın məktubunu bir də diqqətlə oxuyum, sonra durum. Zaxar!

Yenə də tappıltı və daha ucadan donquldanma səsləri eşidildi. Zaxar içəri girdi, Oblomov yenə də fikrə getdi. Zaxar iki dəqiqə dayandı, ağaya bir qədər acıqlı və tərs-tərs baxıb, nəhayət, qapıya tərəf getdi.

Oblomov birdən:

– Hara gedirsən? – soruşdu.

– Siz bir söz demirsiniz, mən boş yerə burada niyə dayanım? – deyə Zaxar boğuq səslə xırıldadı; o, başqa səslə danışa da bilməzdi; özünün dediyinə görə əvvəlki ağası ilə ova getdiyi, itlərlə bərabər şikar etdiyi vaxtlarda boğazına bərk soyuq dəymiş, nəticədə səsi batmışdı.

O, otağın ortasında yanpörtü dayanıb, Oblomova çəpəki baxdı.

– Ayaqların quruyub? Dayana bilmirsən? Görürsən ki, dərdim var, fikirdəyəm. Dayan gözlə. Orada uzanmaqdan doymamısan? Dünən darğadan aldığım məktubu axtar tap. Onu hara qoymusan?

– Nə məktub? Mən məktub-zad görməmişəm, – deyə Zaxar cavab verdi.

– Onu poçtalyondan sən özün qəbul eləmişdin: üstü çirkli məktub idi.

Zaxar əlini şappıltı ilə stolun üstündə qalaqlanmış kağızlara və müxtəlif əşyalara vura-vura:

– Axı mən nə bilim onu hara qoyublar? – deyirdi.

– Sən heç vaxt heç nə bilmirsən. Ora, zənbilin içinə bax. Ya da, bəlkə, divanın arxasına düşüb? Görürsən, heç divanın kürəyi bu vaxtadək təmir edilməyib. Dülgər çağırıb onu təmir elətdirsən nə olar? Axı onu sən sındırmısan. Heç nəyi fikirləşmirsən.

– Mən sındırmamışam, – Zaxar cavab verdi. – O öz-özünə sınıb; dünyanı tutub durmayacaqdı ki. Bir gün sınmalı idi də.

İlya İliç ona nəyisə sübut etməyi lazım bilmədi.

O sadəcə:

– Tapdın, ya yox? – Soruşdu.

– Budur, burada məktublar var.

– Onlar deyil.

– Bunlardan başqa məktub yoxdur, – Zaxar deyindi. İlya İliç səbirsizliklə:

– Yaxşı, get! – dedi. – Özüm durub taparam.

Zaxar öz otağına getdi, özünü yatağına atmaq üçün əllərinə yenicə dayaq verirdi ki bir də eşitdi:

– Zaxar! Zaxar!

Zaxar yenə də kabinetə tərəf gedərək:

– Pərvərdigara! – deyə donquldandı. – Belə əzab olar? Ölsəydim, birdəfəlik canım qurtarardı. Nə istəyirsiniz? – Zaxar bir əli ilə kabinetin qapısını tutub, Oblomova narazılıq əlaməti olaraq, yanakı dayanıb baxdı. O, ağasını yarıyadək görürdü, ağası isə onun əndazəsiz bakenbardını görə bilirdi: adama elə gəlirdi ki, oradan elə bu saat iki-üç quş uçacaq.

İlya İliç ciddi tərzdə dedi:

– Burun dəsmalımı ver, cəld ol. Özün gərək başa düşəydin; amma başa düşmürsən!

Zaxar ağasının bu əmrini və məzəmmətini eşidəndə nə narazılıq etdi, nə də təəccübləndi; yəqin ki, bu əmri də, məzəmməti də tamamilə təbii hesab edirdi.

– Kim bilir dəsmal haradadır? – Zaxar otağın hər tərəfini gəzərək donquldanır və əlilə stulların üstünü yoxlayırdı; halbuki, stulların üstündə heç nəyin olmadığını görmək olurdu.

Zaxar:

– Hər şeyi itirirsiniz, – deyə qonaq otağının qapısını açıb, yaylığın orada olub-olmadığına baxmaq istədi.

– Ora niyə baxırsan? Burada axtar. Mən üç gündür oraya keçməmişəm. Tez ol! – İlya İliç onu tələsdirirdi.

– Yaylıq haradadır? Yaylıq yoxdur! – deyə Zaxar əllərini yellədir və künc-bucaqları nəzərdən keçirirdi. Birdən acıqlı və xırıltılı səslə,